Kim Allaha şərik qoşmadan ölərsə cənnətə daxil olar, kim Allaha şərik qoşaraq ölərsə cəhənnəmə daxil olar

Cabirdən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə dedi: Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına bir kişi gəlib belə dedi: Ey Allahın Rəsulu, (insanı cənnətə və cəhənnəmə salan) iki səbəb nədir? Dedi: "Kim Allaha şərik qoşmadan ölərsə cənnətə daxil olar, kim Allaha şərik qoşaraq ölərsə cəhənnəmə daxil olar".

[Səhih] [Muslim rəvayət etdi]

Kişi peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) iki səbəb barəsində soruşdu: Cənnətə aparan və cəhənnəmə vasil edən səbəb. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cavab verir ki: Cənnətə aparan səbəb insanın tək olan Allaha ibadət edib, Ona heç bir şeyi şərik qoşmadan ölməsidir. Cəhənnəmə salan səbəb isə insanın, Allahın uluhiyyətində və ya rübubiyyətində və ya ad və sifətlərində Ona hər hansı şeyi tay tutması və şərik qoşaraq ölməsidir.

http://sunnah.global/hadeeth/az/show/65008